**L.E.ƏFƏNDİYEVA**

**Azərbaycan Dillər Universiteti**
(Bakı şəh., R.Behbudov küç., 60)

# NATİQLİK SƏNƏTİ

***Açar sözlər:*** *natiqlik, məhkəmə, ritorika*
***Ключевые слова****: ораторское искусство, суд, риторика*
***Key words****: oratory, court, rhetoric*

"Natiq" sözü "nitq, çıxış edən" deməkdir. Özünün ictimai əhəmiyyətli fikirlərini anlaşıqlı, inandırıcı, təsiredici bir şəkildə ifadə etməyi bacaran adam əsl natiqdir. Natiqin silahı canlı sözdür. Natiqlik qabiliyyəti üçün hər şey – mətnin məzmunu, intonasiya, davranış tərzi, jestlər, mimikalar lazımdır. Natiqlik sənətinin əsas materialı sözdür. Ona görə də bu materiala mükəmməl yiyələnmək gərəkdir. Hər şeydən əvvəl, insan öz leksikonunu zənginləşdirməlidir.

Tarixi qaynaqlardan məlum olur ki, lap qədim zamanlardan məzmunlu, aydın, yığcam, təsirli nitqə malik olan adamlar cəmiyyət tərəfindən həmişə yüksək qiymətləndirilmişdir. Nitqin gözəlliyi və ona sahib olmağın yolları böyük şəxsiyyətlərin daima diqqət mərkəzində olmuşdur (1).

Natiqlik də bir elm kimi Yunanıstanda meydana gəlmiş, inkişaf etmişdir. Qədim Yunanıstanın ictimai-siyasi həyatındakı mübarizələr, iqtisadiyyatda baş verən irəliləyiş, elmi tərəqqi ilə bağlı Afina şəhər dövlətində natiqlik sənəti inkişaf etməyə başlayır. Ölkəni idarə edənlər ideyalarını müdafiə etmək, məqsədlərini kütlələrə çatdırmaq məqsədilə sözdən, natiqlik sənətindən təsirli və kəsərli silah kimi istifadə etməyə çalışırdılar. Eramızdan əvvəl VII-IV əsrlərdə fəaliyyət göstərən yunan natiqlik məktəbi Aristotel, Kvintilian, Demosfen, Esxil, Dinarx kimi görkəmli natiqlər yetirmişdir. Onlar natiqlik sənətini, onun nəzəriyyəsini, təlimini qurmuş və sistemini yaratmışlar. Həmin məktəblərdə dərs deyən Aristotel, Qorqiy, Frasimax, İsokrat, Demosfen, Esxin kimi görkəmli natiqlər bu sənəti həm nəzəri, həm də praktik şəkildə öyrənənlərə aşılamışlar. Antik yunan natiqlik sənətinin yaranması və inkişafında Aristotelin xüsusi rolu olmuşdur.Aristotel nitqin üsluba, məqsədə və şəraitə uyğun qurulmasına daha çox fikir verir və göstərirdi ki, üslubun əsas mahiyyəti onun aydınlığı ilə bağlıdır. Üslub nitqin predmetinə uyğun olmalıdır. Aristotel natiqin məharətinin beş cəhətini xüsusi qeyd edirdi:

1. Materialın icadı və onun hazırlanması;
2. Planın tərtibi. Materialın plan üzrə müvafiq formaya salınması;
3. Həmin materialın öyrənilməsi və yadda saxlanılması;
4. Materialın şifahi şərhinin ədəbi-üslubi cəhətdən işlənməsi;
5. Nitqin söylənilməsi, orfoepiya (ədəbi tələffüz), intonasiya, emosiya və s. məsələlərin nəzərə alınması və onlara əməl olunması.

Aristotel yaxşı nitq üçün materialın düzgün seçilməsi, planın tutulması, onun mükəmməl öyrənilməsi, söyləmə zamanı uyğun üslubun müəyyənləşdirilməsi, orfoepik və intonasiya qaydalarına əməl edilməsi, emosiyaların özünəməxsus forma ilə verilməsini mühüm şərt sayırdı. Qədim Yunanıstanda natiqlik sənətinin inkişafına güclü təsir göstərən səbəblərdən biri də Solon qanunları olmuşdur. Bu qanunlara görə hər bir afinalı məhkəmədə öz hüququnu müdafiə etməyi bacarmalı idi. Belə bir tələb əsasında afinalılar hüquqi biliklərə yiyələnməyə, həm də öz hüquqlarını müdafiə etmək üçün aydın, təsirli, məntiqli, rabitəli danışmağa xüsusi səy göstərirdilər. O zaman məhkəmədə vəkillər fəaliyyət göstərmədiyindən vətəndaşlara loqoqraflar kömək edirdilər. Loqoqraflar hüquqi təhsil almış adamlar idilər, onlar xüsusi muzdla məhkəmədə baxılacaq işin məzmun və mahiyyəti ilə bağlı nitqlər yazırdılar. İşi məhkəməyə düşən afinalı həmin nitqi əzbərləyir və məhkəmə prosesində özünü müdafiə edirdi. Lisi,

Hiperid, Esxin, Trasimax, Demosfen öz dövrlərinin görkəmli loqoqrafları, natiqləri olmuşlar. Bunlardan Demosfen antik natiqliyin yaranması və inkişafında xüsusi rol oynamışdır.

Natiqlik sənətini yüksəklərə qaldırmış, natiqlik məktəbi yaratmış Demosfenin neçə-neçə ritorların yetişməsinə köməklik göstərmişdir. Təsadüfi deyil ki, vaxtı ilə M.P.Siseron "Kim Demosfen kimi olmaq istəmirsə, o, natiq deyil" fikrini irəli sürmüşdür. Demosfen bu şan-şöhrətə birdən-birə gəlib çatmamışdı. Bu, uzun illərin, gərgin zəhmətin, mübarizə və mətin iradənin hesabına başa gəlmişdi. Həyata fiziki cəhətdən qüsurlu gələn Demosfen (o, «r» səsini düzgün tələffüz edə bilmirmiş, danışan zaman çiynini çəkirmiş və s.) ilk növbədə bu qüsurları aradan qaldırır. O, dəniz qırağına gedir, ağzına xırda daş atıb, gur səslə nitq söyləyir. Çox çəkmir ki, onun nisbətən yekə dili normal hala düşür və pəltəkliyi aradan qalxır. Sonra özündən hündür olan yerdə qılınc asır və çiyni üzərində saxlayır. Çiynini atdığı zaman qılınca toxunur. Qılıncın verdiyi ağrı hesabına bu qüsurunu da aradan qaldırır. Natiqliyin tələblərindən irəli gələn prinsipləri əsas götürən Demosfen onlara ciddi əməl edirdi. Bu tələblər aşağıdakılardır:

1) Materialın toplanması; 2) Məzmun və formaya uyğun plan tərtib edilməsi; 3) Ardıcıllığın gözlənilməsi; 4) Üslubi çalarların işlənməsi; 5) Nitqdə intonasiyadan, orfoepiyadan, səs tembrlərindən düzgün istifadə olunması (1).

Demosfen bütün nitqlərində giriş, əsas hissə, nəticədən istifadə etmiş və nitqini hissələrə bölmüşdür. Demosfenin tələffüzü aydın, anlaşıqlı idi. O, özünün dərin məntiqi, rəngarəng intonasiya çalarları, müraciət formaları, ritorik sualları ilə dinləyiciləri cəlb edə bilirdi. Demosfen nitqlərində Afinanın satqın və fəaliyyətsiz hakimlərini ifşa edir, onları ədalətli olmağa çağırırdı. Məhz bu keyfiyyətlərinə görə afinalılar böyük inamla danışan Demosfenin nitqinə həvəslə qulaq asır, onu axıra qədər dinləyirdilər.

Qədim dünya natiqlik sənətinə bir sıra görkəmli şəxsiyyətlər bəxş etmişdir. Katon, Qrakxi, Antoni Mark kimi söz ustaları Roma natiqlik məktəbinin yetişdirmələri olmuşlar. Bunların içərisində bir natiq kimi dünya şöhrəti qazanmış görkəmli dövlət xadimi, mütəfəkkir Mark Tuli Siseron xüsusilə fərqlənirdi. Onun "Natiqlər barəsindəki" traktatı zəmanəmizə qədər məhkəmə ritorikasının dərs vəsaiti kimi xidmət edir. Natiqlik məharəti qarşısında duran vəzifələri Siseron aşağıdakı kimi qısaca ifadə edir: «Forumda və məhkəmədə çıxış edən, sübut etməyi, məftun etməyi və inandırmağı bacaran adamı gözəl natiq hesab etmək olar. Sübut etmək vacibdir, məftun etmək zövqverəndir, əgər işi udmaq istəyirsənsə, məhz bu sonuncu xüsusiyyət daha vacibdir; natiqlər qarşısında nə qədər vəzifələr dayanır, nə qədər natiqlik istedadı növləri mövcuddur: incəliklə sübut etmək lazımdır, ölçü ilə məftun etmək, hərarətlə inandırmaq; bütün bunlara natiqin gücü daxildir». Siseron uzunmüddətli natiqlik fəaliyyətində müxtəlif qəbildən olan dinləyicilər qarşısında müxtəlif məsələlər barəsində – məhkəmədə vətəndaş və cinayət məsələləri üzrə, senatda və komitiorumda siyasi mövzular barəsində çıxış etməli olmuşdur. Qədim Roma natiqlik məktəbinin nümayəndələrindən biri də Mark Fabiy Kvintilian olmuşdur. O, natiqlik nəzəriyyəçisi kimi tanınmışdır. Açdığı ritorika məktəbi ona şöhrət gətirmişdi. Kvintilian "Natiqlik təhsili" adlı kitabdan ibarət əsər yazmışdı. Həmin kitabda natiqlik sənətinin elementləri və ritorikanın mahiyyəti, nitq üzərində işin mərhələləri (mövzunun seçilməsi, yerləşdirilməsi, yadda saxlanılması, nəqli, aydın tələffüzü), natiqlik sənətinə, natiqlərin fəaliyyətinə verilən tələblər şərh olunmuşdur. Kvintilian natiqlik sənətinə yiyələnməyi təhsilin zirvəsi hesab edirdi. O, bunu obrazlı şəkildə belə ifadə edirdi: "Şair doğulurlar, natiq isə olurlar. Natiqlik sənətinə isə təlimin köməyi ilə yiyələnmək mümkündür" (5).

Xalq yaradıcılığının incilərindən olan natiqlik sənəti cəmiyyətdə mühüm yer tutur. Natiqlik sənəti hər bir insanın qabiliyyətini, istedadını üzə çıxarır. Natiqlik sənətinin ən böyük rolu ondan ibarətdir ki, bu sənət vasitəsilə yeni natiqlər və cəmiyyətə xidmət edən təbliğatçılar yetişir. Natiqliyin əsas xüsusiyyətlərindən biri odur ki, bu sənət ilə məşğul olan hər bir adam hansı mövzuda nitq söyləyirsə, həmin elmi dərindən öyrənir və müşahidələr aparır. Bu da fikrin elmi əsaslarla ifadə olunmasına xidmət edir. XX əsr Azərbaycanda natiqlik sənəti və

onun inkişafı yeni mərhələyə qədəm qoydu. Bu dövrdə natiqlik sənəti, üslub və üslubiyyat haqqında dəyərli fikirlər, elmi məqalələr, kitablar, dərsliklər yazılıb çap olunmuşdur. Dünya natiqlik sənəti, onun ən gözəl nümunələri Azərbaycan dilinə çevrilmiş və onlardan layiqincə istifadə olunmuşdur. Məhz bu illərdə Ə.Sultanlı, H.Araslı, Ə.Dəmirçizadə, H.Mirzəzadə, M.Cəlal, M.Quluzadə, A.Qurbanov, Y.Seyidov, A.Axundov, T.Hacıyev və başqa dilçilər xeyli əsərlər çap etdirmişlər (2).

Müasir dövrümüzdə xalq kütlələri arasında, idarələrdə, müxtəlif sahələrdə çalışan insanları informasiya ilə təmin etmək üçün cəmiyyətimizə savadlı natiqlər lazımdır. Natiq xalqının həm təbliğatçısı, həm də təşkilatçısı olmalıdır. Ona görə də cəmiyyətimizin qaymağı sayılan müəllimlər, mədəniyyət xadimləri, bilik cəmiyyətlərində fəaliyyət göstərən mühazirəçilər, ağsaqqallar natiqlik sənətinin əsaslarını dərindən öyrənməli və yeri gəldikcə məqsədyönlü şəkildə bundan istifadə etməlidirlər. Bu günümüzün tələblərinə cavab vermək üçün hər bir natiq dərin biliyə və müşahidə qabiliyyətinə malik olmalıdır. Natiq həmçinin dilin incəliklərini dərindən bilməlidir. Natiqlik sənətinin növlərini aşağıdakı şəkildə qruplaşdırmaq olar.

1) ictimai-siyasi natiqlik sənəti. Bu natiqlik sənəti aşağıdakı qollara bölünür:

a) siyasi mövzularda məruzələr; b)iclaslarda, qurultaylarda, konfranslarda hesabat xarakterli məruzələr; c) siyasi nitq; d) xülasə ( və ya icmal); e) kütləvi tədbirlərdə, məsələn, mitinqdə söylənilən nitqlər; f) təbliğatçı və təşviqatçı nitqi;

2) akademik natiqlik. Buraya aiddir: a) mühazirələr; b) elmi məruzələr; c) elmi xəbərlər; d) birdəfəlik oxunan mühazirələr;

3) məhkəmə natiqliyi. Buraya aiddir: a) prokuror nitqi və ya ittihamedici nitq; b) vəkil və ya müdafiə nitqi; c) müttəhimin nitqi; d) özünü müdafiə nitqi; e) hakimin nitqi;f) şahidlərin nitqi;

4) məişət natiqliyi. Buraya daxildir: a) yubileylərdəki nitq, b) masa arxasında deyilən nitq (6).

Natiqlik sənəti mürəkkəb sintetik xarakterə malikdir. Müxtəlif sahələr üzrə mütəxəssisləri gözəl danışıq qabiliyyətinin müxtəlif problemləri maraqlandırır. Məsələn, linqvistlər şifahi nitq mədəniyyətinin nəzəriyyəsini işləyir, natiqlərə doğma dilin xəzinəsindən necə bəhrələnmək barədə məsləhətlər verirlər. Psixoloqlar nitq məlumatlarının dərk olunması və təsiri məsələlərini öyrənir, kütlə qarşısında çıxışlar zamanı sabit diqqət problemləri ilə məşğul olur, natiqin şəxsiyyətinin psixologiyasını, insanların sosial-psixoloji cəmiyyəti kimi auditoriyanın psixologiyasını tədqiq edirlər. Məntiq natiqə öz fikirlərini ardıcıl, düzgün çatdırmağı, çıxışını düzgün qurmağı, irəli sürdüyü müddəaların düzgünlüyünü sübut etməyi və rəqiblərin iddialarını rədd etməyi öyrədir. Nitqimizin mənalı, zəngin və rəngarəng olması üçün nitq mədəniyyətinin tələb etdiyi kimi, qrammatik cəhətdən düzgün, məntiqli cəhətdən səlis və ana dilində danışmağı bacarmalıyıq.

## Ədəbiyyat

1. Babayev A.M. Azərbaycan dili və nitq mədəniyyəti (ali məktəblər üçün dərslik). Bakı, "Elm və təhsil", 2012
2. Abdullayev N.Ə. Nitq mədəniyyətinin əsasları. Dərs vəsaiti. Bakı, 2013
3. Qasımov Ə.Ə. Bakı Universitetinin xəbərləri (sosial-siyasi elmlər seriyası). Nitq mədəniyyətinin tarixi. Siseron, Sokrat, Demosfen. Bakı, 2013
4. Плевако Ф.Н. Избранные речи. М.: Юрайт, 2009.
5. Цицерон М.Т. Три трактата об ораторском искусстве. М.: 1972, с. 195.
6. Qasımov Ə.Ə. Məhkəmə nitq və mübahisələr mədəniyyəti. Bakı: BDU, 2013, 504 s
7. www.ethicsacademy.az/

**Л.Е.Эфендиева**

**Ораторское искусство**
***Резюме***

Речевая культура является результатом сложного исторического процесса. Корни культуры речи идут еще в исторический Египет, Грецию, Рим и Азербайджан. Она возникла на основе теории и практики древней греческой и римской риторики. Риторика связана с именами таких выдающихся ораторов и философов, как Сократ, Цицерон, Демосфен в Древней Греции и Риме.

**L.E.Efendiyeva**

**Oratory art**
***Summary***

Speech culture is a result of a complex historical processes. The roots of speech culture go as far back as to historical Egypt, Greece, Rome and Azerbaijan. It appeared on the basis of the theory and practice of ancient Greek and Roman rhetoric. Rhetoric is tied up with the names of such prominent orators and philosophers as Sokrates, Demothenes, Ciceron, Quintellion in ancient Greece and Rome.

*Rəyçi: f.f.d., dos. C.M.Babayev*

*Redaksiyaya daxil olub: 24.12.2018*